# Gəncə "Vətən sağ olsun!" deyir

**Gəncə belə dağıntılar, terrorlar, xain hücumları çox görüb, dəhşətli zəlzələlər, dağıntılar dövrü yaşayıb. 1139-cu ildə baş vermiş zəlzələ zamanı 500 minlik şəhər əhalisinin yarısı dağıntılar altında qalaraq həlak olsa da, ulu Gəncə yenidən tikilib. Aradan heç 100 il keçməmiş, 1231-ci ildə monqolların Azərbaycana ikinci yürüşündə Gəncə yenə dağıdılıb və yenə də Nizami yurdunu sevənlər ruhdan düşməyib, bir qədər aralıda başqa bir şəhər salıblar... Gəncənin Cavad xan kimi sərkərdəsi olub. Oğlu ilə birgə güclü çar Rusiyasına qarşı son damla qanına kimi vuruşub. Gəncə belə Gəncədir. Qorxmaz, çəsur, yenilməz, prinsipial...**



İndi ermənilər bu şəhəri raket atəşlərinə tutmaqla qorxutmaq, təşviş yaratmaq, onu boşaltmaq istəyirlər. Özü də yarasa kimi gecələr öz çirkin niyyətlərinə çatmaq arzusundadırlar. Uşaq, qadın, qoca bilmirlər, atırlar. Cəbhədəki məğlubiyyətlərini ört-basdır etməyə cəhd göstərirlər, dinc əhalini terrora məruz qoymaqla öz xalqını aldatmağa çalışırlar. Digər tərəfdən, bizi təhrik edirlər ki, adekvat tədbirlər görək və onlar bununla da üçüncü dövləti bu müharibəyə cəlb edə bilsinlər. Çünki təkbə-tək bacarmırlar. İşğal etdikləri torpaqlar bir-bir əldən gedir. Yollara səpələnmiş meyitlərinin sayı-hesabı yoxdur. Amma nahaq belə düşünürlər. Bu



gün Azərbaycan Ordusu çox güclüdür. Onun qarşısında Paşinyan kimi küçədən hakimiyyətə gəlmiş, meydan psixologiyası ilə yaşayan, aciz, qorxaq, yaltaq bir adam nə edə bilər?!

Artıq bütün informasiya kanalları, xarici qəzetlər və saytlar məlumat veriblər ki, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə şənbədən bazara keçən gecə Ermənistan tərəfindən raket atəşinə məruz qalıb.

Sərağagün Azərbaycan Müdafiə Nazirliyi bildirib ki, Gəncə Ermənistan ərazisindən atəşə tutulub. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev mətbuat konfransında deyib ki, zərbə "Toçka-U" kompleksindən buraxılan raket ilə yerinə yetirilib. Nəticədə 9 nəfər həlak olub, 34 nəfər yaralanıb.

Dünən Gəncə Şəhər İcra Hakimiyyəti də məlumat yayıb. Məlumatda deyilir: "Ötən gecədən etibarən Gəncə şəhərində vəziyyət stabilləşib.

Şəhərə gecə ərzində atəş açılmayıb. Hazırda şəhərdə vəziyyət normaldır, sakitlikdir. Əhali arasında heç bir panika yoxdur, insanlar gündəlik işləri ilə məşğuldur. Şəhər ərazisində ictimai nəqliyyat da işini davam etdirir.

Qeyd edək ki, Ermənistan silahlı qüvvələrinin 11.10.2020-ci il tarixdə gecə saat 02 radələrində Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması nəticəsində 4-ü qadın olmaqla 9 nəfər həlak olub.

Bütövlükdə 16 qadın, 6 azyaşlı olmaqla 34 nəfər yaralanıb, həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib".

...Gəncədə hara gedirsən, kiminlə söhbət edirsən, ermənilərin arzusunun puça çıxdığından, şəhər sakinlərinin əzmkarlığından və qətiyyətindən, öz Prezidenti ətrafında daha sıx birləşməsindən, ordumuzun şücaətindən danışır. Deyirlər ki, bu xain həmlələri bizi haqq yolumuzdan çəkindirə bilməz. Gəncə yenə əvvəlki həyatını yaşayır. Şəhərdən çıxan demək olar ki, yoxdur. Marketlər, ictimai iaşə obyektləri, nəqliyyat işləyir, xəstəxanalar, poliklinikalar fəaliyyət göstərir.

Elə ayrı-ayrı şəhər sakinləri ilə apardığımız söhbətlər də göstərir ki, Gəncə yenilməz qala, onların sakinləri isə qorxmaz, vətənpərvər xalqını, Prezidentini sevən, ona güvənən insanlardır.

**Xanlar Fətiyev, Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi Müşahidə Şurasının sədri:** – Gəncəni və gəncəliləri



topla, raketlə qorxutmaq olmaz. Bura qədim tarixə malik, mübariz bir şəhərdir. Gəncəlilər hələ Cavad xanın dövründən həmişə işğalçılarla üz-üzə döyüşüblər. Ermənilərin gəncəliləri qorxutmaq, raket zərbələri ilə müqavimətlərini qırmaq istəkləri baş tutmayacaq. Gəncə terroristlərin bu vəhşiliklərinə dözərək Ali Baş Komandanın ətrafında daha sıx birləşərək və rəşadətli Azərbaycan Ordusuna inanaraq, öz əvvəlki həyatlarını yaşayırlar.

Bəli, ermənilər həmişəki kimi, vandalizm aktlarını davam etdirirlər. Beynəlxalq təşkilatların vasitəçiliyi üçün az qala diz çöküb döyüşlərin dayandırılmasına yalvaran Paşinyan elə atəşkəs elan edilən gün Azərbaycanın müxtəlif şəhər və rayonlarını ən müxtəlif silahlardan atəşə tutmağa başladı. Özü də döyüşlərin getdiyi yerlərdən yüz kilometr aralıda yerləşən yaşayış məntəqələrini hədəfə aldılar.

Gəncə döyüş bölgəsi deyil. Heç hərbi obyektləri, o cümlədən hərbi aeroportu da yoxdur. Burada yaşayan insanlar dinc əhalidir. Onlara raket zərbələri endirmək hərbi cinayətdir. Tökülən hər bir azərbaycanlının qanı üçün onlar cavab verəcəklər. Artıq gün kimi aydındır ki, döyüş meydanında qəhrəman Azərbaycan Ordusuna açıq-aşkar məğlub olan, işğal etdikləri torpaqlarımızdan qovulan ermənilərin gücü ancaq dinc, silahsız əhaliyə çatır.

Azərbaycan xalqının qələbə əzmini heç nə ilə qırmaq olmaz. Hamı öz Ali Baş Komandanına, ordusuna, xalqının iradəsinə, dözümünə inanır.

Prezident İlham Əliyevin dediyi kimi, heç kim bizi geri çəkilməyə məcbur edə bilməz, xalqın mətinlik, qətiyyət, mübarizlik hissini məhv edə bilməz. Biz birlikdə güclüyük.

İnşallah, Ali Baş Komandanın rəhbərliyi altında yaxın vaxtlarda rəşadətli ordumuz tarixi Azərbaycan torpaqlarını erməni faşistlərindən tamamilə azad edəcək və biz də Gəncə avtomobil zavodunun Xankəndidə filialını tikəcəyik.

**Sənan Hacıyev, Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi:** – Gəncə kimi qədim tarixə malik, saysız-hesabsız unikal abidələri olan şəhəri həm də gözləri götürmür. Dörd gün əvvəl hara atmışdılar? İmamzadə Tarixi Memarlıq kompleksinə, bizim səcdə etdiyimiz müqəddəs bir yerə. Cənab Prezidentimiz bu kompleksin yenidən qurulması üçün nə qədər işlər görüb, xeyli vəsait ayırıb. Ermənilər özlərində iki binanın çardağını külək qoparanda aylarla vəsait tapmırlar



ki, bərpa etsinlər. Daha bilmirlər ki, belə tarixi obyektlərimizi hətta barbar kimi dağıtsalar belə, Cənab Prezidentimiz İlham Əliyev onları yenidən, əvvəlkindən də gözəl təmir etdirəcək. Çünki buna bizim dövlətin gücü çatır, biz onlar kimi dilənçi, ac-rəzil deyilik.

Məni bilirsiniz daha çox nə sevindirir və qürurlandırır? Şəhərdəki yaşayış binaları və digər mülki obyektlər erməni vəhşiləri tərəfindən dağıdılarkən gəncəlilərin mütəşəkkilliyi, cəsarəti, xeyirxahlığı, birliyi. Mən dünən gecənin yarısı, hadisədən heç on-on beş dəqiqə keçməmiş az qala bütün şəhərin "Qələbə parkı" ərazisinə gəlib çatdığını gördüm. Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının, əsgərlərin, digər əlaqədar qurumların dağıntılar altında qalan insanların qısa zamanda çıxarılmasındakı fədakarlıqları öz yerində, sağ olsunlar, alqışa layiqdirlər. Lakin həmin dəqiqələrdə şəhərin hər yerindən axışan sakinlərin hərəkətləri, körpələri bağırlarına basıb təcili yardım maşınlarına qaçmaları, qadınların, qocaların qolundan tutub bir kənara çəkmələri, öz əyinlərindəki gödəkçələri, pencəkləri onların çiyinlərinə salması, "qorxmayın, sakitləşin, hamımız burdayıq" demələri heç vaxt gözlərim önündən getməyəcək. İnanın bu mənzərəni göz yaşları ilə seyr edirdim. Çünki millətimlə, gəncəlilərlə fəxr edirdim.

Gəncədə heç bir günahı olmayan dinc sakinlər həlak oldu, çoxlu sayda adam yaralandı. Gəncəlilərin əzmini qıra bildilərmi? Əlbəttə yox! Şəhərin, o cümlədən Prezident Administrasiyasının, Respublika Prokurorluğunun rəhbər işçilərinin





hadisə yerinə gəlmələri, ziyan çəkmiş insanlarla söhbət etmələri, onlara dəstək olması adamların əzmkarlığını, ruh yüksəkliyini daha da artırdı. Onlar yalnız bunu deyirdilər: Vətən sağ olsun! Prezidentimizin canı sağ olsun! Bax budur, xalq rəhbər birliyi. Budur öz Ali Baş Komandanına inam, etibar, etimad!

Evləri dağıdılan sakinlərlə də söhbət etdik. Onlarda olan nikbinlik bizi heyran etdi. Onların hər biri özünü yox, qonşularını da, digər sakinləri də fikirləşir, kömək əlini uzatmağa çalışırdı. Başlıcası isə inam və qətiyyət, dövlətə və dövlətçiliyə sədaqət hissi yüksək səviyyədədir.

**Şərqiyyə Daşdəmirova, dağıdılan binanın sakini:** – Gecə iki idi, artıq yatmışdıq. Birdən gurultu səsinə oyanıb gördüm ki, yer-göy dağılır, şüşə qırıntıları üstümə tökülür. Oğlum tək maykada qaça-qaça gələrək qolumdan tutub məni çıxardı. Özüm çıxa bilmirdim. Dəmir qapı partlayışın zərbəsindən yerindən çıxmışdı. Qonşumun həlak olduğunu bilib hönkür-hönkür ağladım. Uşaqlarım da yaralanıb.

Heç vaxt ağlımıza belə gəlməzdi ki, erməni nə vaxtsa biz tərəfə də raket atar. Amma onlar bizi bombalayır, özü də gündüz bombalamağa qorxur, bu alçaqlığı, vəhşiliyi gecələr edirlər. Qətiyyən qorxmuruq.

**Akifə Bayramova, dağılan binanın sakini:** – Nə olsun evim dağıldı. Dövlətimiz, Prezidentimiz sağ olsun! Heç partlayışdan on dəqiqə keçməmişdi ki, gözümü açdım, ətrafımda tanımadığım adamları gördüm. Haradan gəlmişdilər, necə gəlmişdilər, başa düşə bilmədim. Millətimin qadası tökülsün o vəhşi ermənilərin canına. Bizi belə alçaq işlərlə qorxuda bilməzlər. Baxıram ki, Gəncədə heç kim öz ocağını tərk etməyib. Adamların əhval-ruhiyyəsi qətiyyən pozulmayıb. Çünki hamı Prezidentimizin gücünə, əzminə bələddir. Nədən qorxacağıq?! Lap az qalıb, axırlarına çıxacağıq. Bizim onlar kimi dinc əhali ilə işimiz yoxdur. Qarğa-quzğun kimi Qarabağımıza soxulan erməni cəlladlarını nəzərdə tuturam. Gəncənin heyfini, bax bu gördüyünüz mənzərənin əvəzini onlardan çıxacağıq.

Bəli, Gəncə mübariz ruhdadır. Bu mübarizliyi ona Prezidentimiz, ordumuz verib. Artıq hamı əmindir ki, tezliklə torpaqlarımız işğaldan tamamilə azad olunacaq və biz qələbə bayrağını Xankəndinin mərkəzində dalğalandıracağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

**Gəncə**